BESIRET.AZ

# MÜBAHİLƏ AYƏSİ

Ayətullah Seyid Əli Milani

Ayətullah Seyid Əli Milani

# MÜBAHİLƏ AYƏSİ

Besiret.az – 2023

WWW.BESIRET.AZ

**MÜBAHİLƏ AYƏSİ**

**Müəllif:** Ayətullah Seyid Əli Milani

**Tərcüməçilər:** Baqir Cəfəri, Əbdüssəməd Qurbanov

**Redaktor və korrektor:** Baqir Cəfəri

***Bu kitabın savabını Allahın yer üzərindəki xəlifəsi və dövrümüzün imamı Həzrət Mehdiyə ﷺ hədiyyə edirik.***

**Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı bir vasitə ilə nəşri qadağandır.**

www.besiret.az

# ÖN SÖZ

Hicrətin 10-cu ilində Nəcran xristianları ilə İslam Peyğəmbəri ﷺ arasında baş vermiş mübahilə hadisəsi İslam tarixinin ən önəmli hadisələrindən biridir. Bu hadisə İslam Peyğəmbərinin ﷺ xristianlar üzərində mütləq qələbəsini aşkar etməklə yanaşı, müsəlmanlar arasında əsrlər boyu mübahisə predmetinə çevrilmiş olan Əhzab surəsinin 33-cü ayəsində zikr olunmuş Peyğəmbər ﷺ əhli-beytinin kimlərdən ibarət olması, Peyğəmbərdən ﷺ sonra xəlifəliyə kimin daha layiqli olması, həmçinin Peyğəmbər ﷺ səhabələri içində hansı səhabənin ən üstün və ən fəzilətli olması kimi bir çox mübahisəli məsələlərə aydın şəkildə cavab verir. Çünki bu hadisə barədə nazil olmuş Ali-İmran surəsinin 61-ci ayəsində Allah Öz Peyğəmbərinə ﷺ xristianlarla mübahilə etmək üçün özü ilə birgə əhli-beytinin fərdlərini, yəni qadınlarını, övladlarını və özünü gətirməyi tapşırmış, Peyğəmbər ﷺ də Allahın bu göstərişinə əməl edərkən mübahiləyə özü ilə yalnız Xanım Fatiməni (ع), İmam Həsən (ع), İmam Hüseyni (ع) və İmam Əlini (ع) gətirmişdir. Deməli, Allah yanında Peyğəmbərin ﷺ ən əziz şəxsləri, onun əhli-beyti məhz burada qeyd edilən şəxslərdir. Üstəlik Allah-taala bu fərdlər arasında Həzrət Əlini (ع) məhz Peyğəmbərin ﷺ özü adlandırmış, bunula da Peyğəmbərdən ﷺ sonra onun yerinə oturacaq şəxsi və Peyğəmbərdən ﷺ sonra bütün insanlardan üstün olan kimsəni hamıya bəyan etmişdir. Axı Peyğəmbərin ﷺ özü sayılan şəxs ola-ola Peyğəmbərin ﷺ yerinə başqa şəxs otura bilərmi?! Yaxud Allah yanında bəşəriyyətin ən üstün varlığı olan Həzrət Muhəmmədin ﷺ özü sayılan şəxsin fəzilət və üstünlüyünü hansısa digər bir şəxs ilə müqayisə etmək rəvadırmı?!

Bu kimi suallara aydınlıq gətirdiyi üçün mübahilə hadisəsi qədim zamanlardan böyük alimlərimizin diqqət mərkəzində olmuş və bu barədə geniş araşdırmalar aparmalarına gətirib çıxarmışdır. Günümüzdə yaşayan böyük tədqiqatçılardan biri olan Ayətullah Seyid Əli Milani də bu barədə araşdırma aparmış şəxslərdən biridir. Yuxarıda qeyd ediyimiz məqamları nəzərə alaraq bu tarixi hadisənin növbəti ildönümündə adını qeyd etdiyimiz böyük tədqiqatçı alimin mübahilə hadisəsi barədə olan mühazirəsindən toplanmış və kiçikhəcmli, anlaşılan dildə qələmə alınmış bir əsəri oxuculara hədiyyə etmək qərarına gəldik. Ümid edirik ki, təqdim etdiyimiz bu kiçikhəcmli kitab mütaliə əhlinə bu əzəmətli hadisə barədə böyük faydalar verəcək.

**Besiret.az saytının idarə heyəti**
**Bakı şəhəri**
**23 zilhiccə, hicri 1444-cü il (12/07/2023)**

*Rəhman və Rəhim olan Allahın adı ilə*

# GİRİŞ

*Həmd aləmlərin rəbbi olan Allaha məxsusdur. Seyidimiz, peyğəmbərimiz Məhəmməd və onun pak, uca olan ailəsinə salam və salavat olsun. Onların əvvəlki nəsillərdən və sonrakılardan olan bütün düşmənlərinə Allahın lənəti olsun.*

*Bildiyiniz kimi, Ramazan ayı gecələrində bəlkə də ən xeyirli əməllərdən biri elmi müzakirədir. Etiqadi, üsuli-dinə aid olan məsələlər də elmi məsələlər arasında ən üstün olanlarındandır. İmamət məsələsi isə əqidəvi mövzuların ən üstünlərindəndir.*

*Allahdan istəyirik ki, imamət məsələsi ilə bağlı bəzi mövzulara bir qədər işıq salmaqda bizi müvəffəq etsin, biz də bu həssas əqidəvi məsələ barədə Quran və sünnənin bizə çatdırdığı şeyləri görə bilək.*

*Mən bu məsələ ilə bağlı hər bir şeydən xəbərdar olduğumu iddia etmirəm. İddia etmirəm ki, bu məsələ barədə ortaya atılan hər bir suala cavab verməyə qadirəm. Mən, bu günlərdə deyildiyi kimi, xətib, mahir bir natiq, sözləri gözəl şəkildə düzən və sözlərlə oynayan biri də deyiləm.*

*Bu gecələrdə çalışacağam ki, on iki imamçı şiələrin dəlillərindən bir neçəsini, digərlərinin də əsas dəlillərindən bir neçəsini qeyd edərək imamət məsələsi barədə bəhs edim, sonra isə imamətlə bağlı bir sıra məsələləri araşdırım. Mətləbləri və ifadələrimi olduqca sadələşdirməyə çalışacağam ki, izahlar qarışıq olmasın, məsələləri anlamaqda çətinlik yaranmasın.*

*Ola bilər ki mənim bu sözlərim təvazökarlıq kimi qəbul olunsun, amma bu sadəcə hüsnü-zənn olar.*

## ARAŞDIRMANIN MÜQƏDDİMƏLƏRİ

Mövzulara və elan edilən metoda əsasən araşdırmağı qərara aldığımız əsas məsələlərə daxil olmazdan öncə gərək bəzi müqəddimələr qeyd edilsin. Buna görə də deyirik:

- **Birinci müqəddimə: Məsələlərin doğru əsaslar üzrə araşdırılması**

Hər bir məsələ barədə edilən araşdırma gərək doğru, öyrənilmiş əsaslar üzrə olsun. Bəzən müzakirədəki qarşı tərəf, xitab etdiyin şəxs sənin kimi imamiyyə şiəsi olur. Bu zaman sən onunla məzhəb daxilində höccət olan şeylər əsasında bəhs edir və ona dəlil gətirirsən. Buna görə də öz fikrin üçün"əl-Kafi" kitabında olan bir rəvayəti dəlil gətirə bilərsən. Amma (qarşındakı da) sənin kimi on iki imamçı şiə olmadıqda məsələ dəyişir. Gərək sizin aranızda olan bəhs ortaq qəbul edilən məsələlərə və ortaq dəlillərə söykənsin. Ortaq olan dəlillərin isə birincisi: Qurani-Kərim; ikincisi: sağlam ağıl; üçüncüsü: sünnədə gəlmiş, hər iki tərəfin qəbul etdiyi rəvayətlərdir. Yaxud da sənin nəzərində höccət olmasa da, onun nəzərində höccət olan sünnə ilə ona dəlil gətirərsən. Lakin ona "əl-Kafi" kitabından dəlil gətirə bilməzsən. Habelə o da sənə Buxarinin kitabından dəlil gətirə bilməz. Elə isə gərək ortada hansısa bir kitab, ya hər iki tərəfdən qəbul edilən sünnə, yaxud da bütün ağıl sahiblərinin öz araşdırmalarında qəbul etdiyi bir qayda, həmçinin ortaq, müştərək olan bir nöqtə olsun ki, hər iki tərəf bir-birini mühakimə etdikdə bu ortaq nöqtəyə müraciət etsin.

Yox, əgər xitab edilən tərəf sünni olduğu təqdirdə belə Buxarinin kitabını qəbul etməsə, hətta altı səhih kitabdan heç birini səhih hesab etməsə, gərək ona özünün höccət hesab etdiyi şeylərdən, yəni Qurani-Kərimdən, yaxud ağıldan dəlil gətirilsin. Əgər ona sünnədən dəlil gətirmək istəsək, gərək dəlil gətirdiyimiz rəvayətin səhihliyini sübut edək ki, o rəvayəti qəbul etsin. Çünki əgər onların rical alimlərinin sözlərinə əsasən rəvayət səhih olsa, o rəvayəti qəbul etməlidir.

Bu dövrdə bəzi şəxslər də var ki, "səhiheyn"in (Buxari və Müslimin kitablarının) mötəbərliyini qəbul etmir, o ki qaldı "səhih"lərin hamısını qəbul etsin. Həmin şəxslər yalnızca səhih sənədli rəvayət qəbul edirlər, istər bu rəvayət

“səhiheyn”də olsun, istər başqalarında. Bu halda rəvayətin səhih olması üçün onun səhihliyinin isbatı əhli-sünnə rical alimlərinin həmin rəvayətin raviləri barəsində dedikləri sözlərə əsaslanmalıdır. Əgər bu zaman etiraz etsə ki, rical alimlərinin sözləri mənim nəzərimdə höccət deyil, bu şəxslə danışmayıb ondan uzaqlaşmaq lazımdır. Çünki o nə “səhiheyn”i qəbul edir, nə digər səhihləri, nə də onların öncül rical alimlərinin sözlərinə əsasən səhih olan hədisi. Belə bir şəxslə danışmağa bir yol qalmır. Lakin əhli-sünnə arasında yayğın olan fikir budur ki, onlar “səhiheyn”in rəvayətlərini mötəbər hesab edirlər. Baxmayaraq ki biz bəzi araşdırmalarımızda bu məşhur fikrin heç bir əsasının olmadığını isbat etmişik, ancaq onlar arasındakı məşhur fikir budur. Həmçinin altı səhih kitabın rəvayətlərinin səhih olması da onlar arasında məşhur fikirdir, baxmayaraq ki bu altı kitabın təyinində də bir qədər ixtilaf etmişlər. “Musnədu Əhməd” kimi müsnəd kitablarının da çoxu (onlara görə) mötəbərdir. Hərçənd ki əhli-sünnənin bəzi böyük alimlərinin nəzərinə əsasən, Əhməd öz müsnədində yalnız səhih hədisləri qeyd etməyə çalışmamışdır. Amma bizdə Əhmədin özündən sənədlərlə nəql edilən bəzi dəlil və əlamətlər var ki, (həmin dəlillərə əsasən,) Əhməd öz müsnədində ancaq səhihləri qeyd etməyə riayət etmişdir. Bunlardan əlavə məşhur kitablar da var. Biz də buradakı bəhslərimizdə Qurani-Kərim və ağıl ilə istidlaldan əlavə ancaq səhih kitablara, müsnədlərə və məşhur kitablara söykənəcək, istidlal sırası sünnəyə yetişdikdə bilinən, məşhur, mötəbər və etimad edilən kitablarda mövcud olan hədislərlə, hər iki məzhəb tərəfindən qəbul edilən rəvayətlərlə dəlil gətirəcəyik. Əvvəldə də işarə etdiyimiz kimi, rəvayətlər gərək hər iki tərəfdən qəbul edilən olsun. Rəvayət barədə olan bu həmfikirlik Qurani-Kərim və sağlam ağıl kimi ortaq bir nöqtədir.

### ◆ İkinci müqəddimə: Quran, ağıl və sünnə ilə istidlal (dəlil gətirmə)

Kəlamın əvvəlində bildirdiyimiz kimi, istidlal bəzən Quranla, bəzən ağılla, bəzən də sünnə ilə olur.

Qurani-Kərimə gəlincə onun imamətlə bağlı olan ayələri çoxdur. Lakin mühüm olan budur ki, bu ayələrin şəni-nüzulunu (hansı hadisə ilə əlaqədar nazil olmasını) müəyyən edək. Ayələrin şəni-nüzulu isə yalnız sünnə vasitəsilə təyin edilir. Deməli, məsələ sünnəyə qayıdır.

Ağılla istidlalda bəzi əqli hökmlər var ki, bunlar ümumi əqli hökmlərdir. Amma bu ümumi hökmlərin müxtəlif məsələlərə tətbiqi isə yalnız ağıldan

başqa dəlillər vasitəsilə olur. Məsələn, ağıl aşağı məqamlı birini üstün birinə tərcih etməyi pis hesab edir. Amma görəsən aşağı məqamlı olan kimdir? Bəs üstün olan kimdir ki, ağılın hökmünə əsasən aşağı məqamlının ona tərcihi pis olsun? Bu da sünnəyə bağlıdır. Deməli, yenə də sünnəyə qayıtdıq.

Sünnəyə gəlincə sünnəyə sarılmaq, onun sayəsində öz müddəamızı sübut etmək və ondan dəlil gətirməyin mümkünlüyü ilə bağlı qaydalarımıza işarə etdik. Biz əhli-sünnəyə öz kitablarımızla dəlil gətirmirik. Həmçinin onlar da öz kitabları ilə bizə qarşı dəlil gətirə bilməzlər. Əhli-sünnənin İbn Həzm Əndəlusi kimi böyük alimlərindən bir neçəsi bunu açıqca bildirmişlər. O özünün "əl-Fəsl" əsərində bu mənanı açıqca ifadə edir və bildirir ki, əhli-sünnə imamiyyə əleyhinə əhli-sünnə rəvayətləri ilə dəlil gətirə bilməz. O belə deyir:

"Bizim öz rəvayətlərimizlə onlara qarşı dəlil gətirməyimizin bir mənası yoxdur. Çünki onlar həmin rəvayətləri düzgün hesab etmirlər. Həmçinin onlar da öz rəvayətlərindən bizə qarşı dəlil olaraq istifadə edə bilməzlər, çünki biz də həmin rəvayətləri düzgün hesab etmirik. Gərəkən budur ki, bir-birinə müxalif olan şəxslər qarşı tərəfin qəbul etdiyi şeylərlə bir-birinə dəlil gətirsinlər, istər dəlil gətirənin özü həmin dəlili qəbul etsin, istərsə də etməsin. Çünki bir şəxs hər hansısa bir şeyi təsdiq edirsə, gərək həmin fikri, yaxud onun nəticələrini qəbul etsin. Yox, əgər öz fikrində qalarsa, heç bir söz tapmadan inadkarlıq etmiş olar".[1]

Aydın məsələdir ki, şiə "səhiheyn"i belə höccət bilmir, o ki qaldı digərləri. Deməli sünni onlarla şiəyə qarşı dəlil gətirə bilməz. O cümlədən şiə də sünniyə qarşı şiə kitabından dəlil gətirə bilməz. Çünki sünni, məsələn, "əl-Kafi" kitabını mötəbər hesab etmir.

Elə isə biz səhihlərin, müsnədlərin rəvayətləri ilə və hər iki tərəfdən qəbul edilən rəvayətlərlə dəlil gətirəcəyik. Bəzən ola bilər ki dəlilimiz tam olsun deyə onların alimlərinin kitabları, böyük alimlərinin rical sahəsindəki sözləri əsasında xüsusi olaraq hansısa rəvayətin sənədinin səhihliyini sübut etməyə ehtiyacımız olsun. Bu zaman isə qarşı tərəfin qəbul etməkdən başqa çıxış yolu qalmayacaq, ya da təəssübkeşlik və inad yaranacaq. Biz isə təəssübkeş və inadkarlarla bəhs etmirik.

---

[1] İbn Həzm Əndəlusi, Əl-Fəsl fil-əhvai vəl-miləli vən-nihəl, c. 4, səh. 159.

## SÜNNƏ İLƏ İSTİDLALIN BƏZİ QİSİMLƏRİ

Sünnə ilə istidlala gəlincə isə imamət mövzusu ilə bağlı rəvayətlər bir neçə qismə bölünür. İlk öncə həmin rəvayətlərin iki əsas qismə bölünməsi barədə danışacağıq.

**Birinci qisim:** Ayələri şərh edən və onların şəni-nüzulunu açıqlayan rəvayətlər. Zikr etdiyimiz kimi, Quranla istidlal yalnız sünnə vasitəsilə həyata keçir. Çünki Quranda heç bir kəsin[1] adı yoxdur. Bəzi ayələr var ki, imamət məsələsində bu ayələr vasitəsilə dəlil gətirilir. Lakin Qurani-Kərimlə istidlalı tamamlayan isə həmin ayələrin təfsiri və onların nazil olma səbəbi barədə sünnədə olan mötəbər hədislərdir.

**İkinci qisim:** Allah rəsulundan ﷺ sonrakı xilafət, vilayət və imamət məsələlərinə dəlil olaraq qeyd edilən, amma ayələrlə heç bir əlaqəsi olmayan rəvayətlər.

Bu rəvayətlər özləri də bir neçə qismə ayrılır. İkinci qisimdə olan rəvayətlər üç qisimdir:

**Birinci qisim:** Açıq şəkildə imamətə dəlalət edənlər.

**İkinci qisim:** İmamətə İmam Əlinin üstünlüyünün isbatı vasitəsilə dəlalət edənlər. Bu üstünlük də bizim "aşağı məqamlı şəxsi üstün şəxsə tərcih etməyin (əqlən) pis olması" ümumi hökmümüzün xüsusi hökmüdür.[2]

---

[1] Yəni imamət məsələsinə daxil olan heç bir kəsin adı yoxdur. Lakin digər şəxslərin adları nadirən qeyd edilib. Əbu Ləhəb künyəsi və Zeyd adı Quranda keçmişdir. (tərc.)

[2] Deduksiya metoduna işarə edilir. Deduksiya ümumi bilgidən xüsusi bilgiyə gedən arqumentasiyadır. Burada birinci və ikinci hökmlər, müqəddimələr olur. Bunlardan isə nəticə əldə olunur. Məsələn, "Həzrət Məhəmməd peyğəmbərdir" birinci hökmümüz-müqəddiməmizdir. Bu hökm xüsusidir. İkinci müqəddiməmiz isə ümumidir, məsələn "Bütün peyğəmbərlər məsumdur". Burada alınan nəticə "Həzrət Məhəmməd məsumdur" olacaq. Kitabdakı misalda da ümumi hökm "aşağı məqamlı şəxsin üstün şəxsə tərcih edilməsinin pis olması"dır. Burada dəlillər birinci müqəddiməni, xüsusi hökmü sübut etməyə çalışır. O isə "Əbu Bəkr Əlidən aşağı məqamlı şəxsdir" hökmüdür. Bu iki müqəddimədən alınacaq nəticə isə "Əbu Bəkrin Əlidən önə keçməsi, onu qabaqlaması (Əbu Bəkri Əliyə tərcih etmək) pisdir" hökmü olacaq. Yəni ikinci qrup dəlillər bu nəticəni əldə etmək üçündür. (tərc.)

**Üçüncü qisim:** Məsumluğa dəlalət edənlər. Məsumluğun imamda şərt olması da ağılın hökmüdür. Bu məsələdə də Quran və sünnədən dəlillər vardır.

### ◆ Üçüncü müqəddimə: İmamət barədə araşdırma aparmağın əhəmiyyəti

İmamət mövzusu çox həssas və mühüm mövzudur. Çünki biz imamı tanımağın vacib olduğu düşüncəsindəyik. İmam barədə, peyğəmbərdən sonra imamın kimliyinin müəyyənləşməsi barədə araşdırarkən də bu ixtilaflı məsələdə haqqın nə olduğunu bilmək istəyirik ki, bu vasitə ilə də həmin imamı özümüzə örnək və nümunə hesab edək, işlərimizdə, həyatımızın bütün dövrlərində ona tabe olaq.

Biz sadəcə onu tanımaq və özümüzlə rəbbimiz arasında vasitə etmək istəyirik. Əgər qiyamət günü bizdən imam barədə soruşulsa, yəni qiyamət günü bizdən "niyə belə etdin? niyə filan işi etmədin?" – deyə soruşsalar, deyək ki, "imamım "filan işi et və ya etmə" – dedi". Bu cavabla da suallar sonlanar.

Bu məqsədlə imam barədə araşdırma etmək istədiyimiz zaman əslində imam və imamət barəsindəki bəhs Xaliq ilə məxluq arasındakı vasitə və vasitəçilik barədə bəhs olur. Biz onu özümüzlə rəbbimiz arasında vasitə etməyi qərara alırıq. Qiyamət günü Allah-taala bizi hesaba çəkərkən imamın bizə yetişən sözlərini, işlərini öz əməllərimizin höccəti olaraq təqdim etmək istəyirik. Yaxud gördüyümüz, tərk etdiyimiz və Allahın bizdən soruşduğu işlərdə üzrlü olduğumuzu bildirmək, bu işlərin imamımızın sözü, hərəkətləri olduğunu, (dini hökmlərin) bizə ondan bu şəkildə yetişdiyini demək məqsədindəyik. Həqiqətdə bu imamət bəhsinin əsasıdır.

Deməli, aydın oldu ki, imamət bəhsi çox mühüm bir bəhsdir. Çünki imam Peyğəmbərin ﷺ olmadığı zamanda onun kimi rəbbimizlə bizim aramızda vasitə olur.

İmamın faktiki olaraq rəhbərlik edib-etməməsi, öz işlərinin icrasında imkanının olub-olmaması, insanlar tərəfindən dinlənilib-dinlənilməməsi, həbsdə olması, gözlərdən uzaq, qeybdə olması, öldürülməsi və s. kimi məsələlər isə - bunların hamısı imamət məsələsinin digər bölmələridir. İmamət bəhsi hakimlik bəhsi deyil, sadəcə olaraq hakimlik imamın işlərindən biridir. Araşdırmaçılar çox zaman bu məsələdə xətaya yol verirlər. Görürük ki, onlar

imamların hakim ola bilməməsi, insanları idarə etməyə fürsətlərinin olmaması və digər məsələləri bizim məzhəbə irad olaraq bildirirlər. Halbuki bu işlərin hamısı bizim indi bəhs etmək istədiyimiz mövzudan xaricdir.

Elə isə Peyğəmbərdən ﷺ sonrakı imam barədə araşdırma aparmalıyıq, çünki biz haqqı bilmək, rəbbimizlə bizim aramızdakı vasitəni tanımaq istəyirik.

Onu tanımağın yoluna gəlincə isə bu da gərək Allah-taala tərəfindən seçilsin. Çünki əgər o, qiyamət günündə bizi mühakimə edib "bu (itaət etdiyin) imamı hansı yolla tanımısan?" – desə, mən də onun bəyənmədiyi bir üsul desəm, deyə bilər ki, "bu imam haqq imam deyil. Sənə kim demişdi ki bu üsul mənimlə sənin aranda vasitə olan, əməli və sözləri qiyamət günü sənə höccət və dəlil olan imamı tanımaqla nəticələnəcək?" Beləliklə, imamı tanımağın yolu özü də gərək Allah tərəfindən olsun. Allah tərəfindən olması isə əvvəldə də işarə etdiyimiz kimi onun Qurani-Kərim, sünnə, sağlam ağıldan qaynaqlanması ilə olur.

Buna görə də Qurani-Kərimdən bir sıra ayələr, Peyğəmbər ﷺ sünnəsindən bəzi hədislər seçdik ki, bunlar vasitəsilə Həzrət Əlinin عليه السلام imamətinə dəlil gətirək. Həmçinin bu məsələdə hökmünü bilmək üçün sağlam ağıla da müraciət etdik.

## MÖVZUNUN HƏZRƏT ƏLİ ﵇ VƏ ƏBU BƏKR ARASINDA MƏHDUDLAŞMASI

Məsələ Həzrət Əli ﵇ və Əbu Bəkrlə məhdudlaşır. Ömər və Osmanın xilafəti isə Əbu Bəkrin xilafətindən qaynaqlanır. Elə buna görə də məsələ Həzrət Əli ﵇ və Əbu Bəkr arasındadır.

İmamiyyə məzhəbi deyir: "Xəlifə Həzrət Əlidir ﵇. O, Peyğəmbərdən ﷺ sonra xəlifə, fasiləsiz olaraq imamdır".

Əhli-sünnə deyir: "Peyğəmbərdən ﷺ sonra xəlifə Əbu Bəkr ibn Əbu Quhafədir".

İmamiyyə məzhəbi giriş olaraq qeyd etdiyim məsələlər əsasında Qurani-Kərimdən olan ayələr və hədislərlə dəlil gətirmişdir. Görəcəksiniz ki, biz qeyd etdiyimiz çərçivədən zərrə qədər belə kənara çıxmırıq.

## MÜBAHİLƏ AYƏSİ

***"(Ey peyğəmbər,) sənə elm gəldikdən sonra kim səninlə İsa barəsində mübahisə edərsə, de: "Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq, sonra isə dua edib yalançılara Allahın lənət etməsini diləyək" ("Ali-İmran", 61).***

Bu ayə Mübahilə ayəsi adlanır.

### Mübahilə sözünün lüğəvi mənası

"Mubahələ" sözü "bəhl" sözündən olub, lüğətdə bir şeyi boş buraxmaq, nəzarətsiz buraxmaq mənasındadır. Bu, Rağibin "əl-Müfrədat"da qeyd etdiyi mənadır.[1]

"Əl-Qamus", "Tacul-ərus" və başqa lüğət kitablarına müraciət etdikdə onların "bəhl"in lənət mənasında olduğunu dediklərini görəcəksiniz.[2] Lakin

---

[1] Rağib İsfahani, Əl-Müfrədat fi ğəribil-Quran, "bəhl" maddəsi.

[2] Zəbidi, Tacul-ərus, "bəhl" maddəsi.

mən Rağibin sözlərinin daha dəqiq olduğunu düşünürəm. "Bəhl" bir şeyi nəzarətsiz qoymaq deməkdir. Məsələn, heyvanın ayaqlarını buxovlamadan və ya hər hansısa bir yerə bağlamadan boşlayırsan, nəzarətsiz qoyub, özbaşına buraxırsan.

Bu məna hədislərimizdə "Allah onu özünə həvalə etdi" sözləri ilə mövcuddur. (Məsələn:) "Kim filan şeyi etsə, Allah onu özünə həvalə edər (özbaşına buraxar, öz nəzərini üzərindən götürər)". Bu məna çox dəqiqdir. Dualarınızda belə dediyinizi xatırlayırsınız: "Ey Allahımız, bizi bir göz qırpımı qədər də olsa, özbaşımıza buraxma". Bu, çox uca və dərin bir mənadır. Əgər insan bir an belə olsa, Allah tərəfindən tərk olunarsa, Allah-taala ilə əlaqəsi kəsilərsə, Yaradanın ona olan lütfü bir saniyə belə olsa, dayanarsa, həmin insan yox olar, həlakətə uğrayar. Əgər bunu xarici aləmdə olan maddi bir şeyə oxşatmaq istəsək, bu işığa, elektrik lampasına baxın. O, elektrik mərkəzi ilə əlaqədədir. Əgər bu əlaqə bir an belə olsa, kəsilərsə, bu elektrik lampasında işıq, nur olmaz. İnsanın özünə həvalə edilməsinin (özbaşına buraxılmasının) mənası budur, (buna görə də dua edərkən belə) deyirsən: "Ey Rəbbimiz, bizi bir göz qırpımı qədər də olsa, özbaşımıza buraxma!"

Möminlərinin əmirinin (ə) "Nəhcül-bəlağə"də bir kəlamı var ki, onu sizə qeyd etmək istəyirəm. Diqqət edin, Möminlərin əmiri (ə) buyurur:

"Məxluqların içində Allahın ən çox iki nəfərdən xoşu gəlmir: birincisi o kəsdir ki, Allah onu özbaşına buraxmışdır. O, haqq yoldan azmış, bidət sözlərə və insanları zəlalətə çağırmağa ürək bağlamışdır. Beləliklə, bu şəxs onun vasitəsilə sınanan şəxslər üçün fitnə-fəsad səbəbidir. Ondan əvvəl doğru yolla gedənlərin yolundan azmışdır, həmçinin sağlığında və ölümündən sonra ona tabe olan şəxsləri azdırandır. (Azdırdığına və günaha saldığına görə) başqalarının günah yükünü daşıyır və eyni zamanda öz günahlarının da girovundadır".[1]

Rağibin sözlərinin daha dəqiq olduğu qənaətinə gəldim, (yəni) "bəhl"in, "mubahələ"nin mənası budur ki, insan Allah-taalaya dua edib Ondan bir şəxsi özbaşına buraxmasını, onu özünə həvalə etməsini istəyə. Möminlərin əmirinin (ə) sözlərinə əsasən (yəni) Allah-taaladan bu şəxsin Allaha nisbətdə ən xoşagəlməz şəxs olmasını istəmək. Bundan şiddətli hansı lənət ola bilər? Kiminsə əleyhində bundan daha artıq necə dua edilə bilər?

---

[1] Seyid Rəzi, Nəhcül-bəlağə, səh. 51, xütbə 17.

Buna görə də lənətin lüğətdəki mənasına müraciət etdikdə görürük ki, onun mənası "qovmaq"dır, qəzəblə qovmaq və mərhəmətdən məhrum etmək. Bir şəxsi lənətlədikdə, yəni Allahdan ona rəhm etməməsini istədikdə Allahdan onun Allaha nisbətdə ən xoşagəlməz şəxs olmasını istəyirsən. Buna əsasən, ("bəhl" haqqında) "əl-Qamus"da verilən məna və onun izahı düzgündür.[1] Lakin Rağibin "əl-Mufrədat"da verdiyi məna daha dəqiqdir. Bu, "mubahələ"nin mənası.

Beləliklə, Peyğəmbərin ﷺ nəyə görə mübahiləyə əmr olunduğunu bildik. Həmçinin bura qədər danışdıqlarımızdan qarşı tərəfin nəyə görə mübahilədən boyun qaçırdığı və hansı səbəblə geri çəkildiklərini anladıq. Baxmayaraq ki onlar mübahilə etməyi qərarlaşdırmış, bununla razılaşmışdılar, (hətta) bunun üçün (mübahilə olunacaq məkana) gəlmişdilər. Lakin onlar Allah rəsulunu ﷺ, onun övladlarının və onun yanında gəlmiş ailəsinin simalarını gördükdə onların baş keşişi belə dedi:

"Mən elə simalar görürəm ki, əgər Allah-taaladan bir dağı yox etməsini istəsələr, Allah o dağı yox edər".[2]

Bəs nəyə görə Peyğəmbər ﷺ həmin şəxslərlə gəlmişdi? Hal-hazırda Peyğəmbərin ﷺ yanında kimlərin gəldiyini müəyyənləşdirmək istəmirik, lakin bu sual qalır ki nəyə görə Peyğəmbər ﷺ başqaları ilə deyil, sırf həmin şəxslərlə gəlmişdi? Mübahilənin mənası haqda bura qədər.

---

[1] Hansı ki müəllifin də qeyd etdiyi kimi orada "bəhl"in mənasının lənət olduğu qeyd olunmuşdur. (tərc.)

[2] Zəməxşəri, Əl-Kəşşaf, c. 1, səh. 369;
Xazin, Təfsirul-Xazin, c. 1, səh. 242;
Xətib Şirbini, Əs-Siracul-munir fi təfsiril-Quran, c. 1, səh. 222;
Əhməd Mustafa Marağı, Təfsirul-Marağı, c. 13, səh. 175 və başqa mənbələr.

## PEYĞƏMBƏRLƏ BİRLİKDƏ MÜBAHİLƏ ETMƏYƏ GEDƏNLƏRİN KİMLİYİ

Əvvəl də işarə etdiyimiz kimi, ayədə hər hansısa bir şəxsin adı keçmir. Mübarək ayədə nə İmam Əlinin ﷷ, nə də başqa birinin adını görürük. Deməli, qeyd etdiyimiz kimi sünnəyə müraciət etməliyik. Yaxşı, hansı sünnəyə müraciət edək? (Burada) hər iki tərəfin qəbul etdiyi sünnəyə baxmalıyıq, hər iki məzhəbin ittifaq etdiyi sünnəyə müraciət etməliyik.

Xoşbəxtlikdən mübahilə məsələsi "səhih"lərdə, "musnəd"lərdə və mötəbər təfsir kitablarında mövcuddur.[1] Bu halda hansı müxalif, müzakirə edən və bəhs aparan bu mətləbdən yan keçə və həqiqəti inkar edə bilər?

İzah: Sünnəyə müraciət etdikdə bəhs gərək daim iki cəhətdən aparılsın. Əks halda, hər hansısa bir hədislə gətirilən dəlil (dəlil olaraq) tamamlanmış sayılmaz:

Birinci cəhət sənəd baxımındandır. Hədis mötəbər olmalı, hər iki tərəfdən məqbul sayılmalıdır. Həmçinin hər iki tərəf həmin hədisi qəbul etməlidirlər. Bu sənədlə bağlı olan məsələdir.

İkinci cəhət isə dəlalət tərəfindəndir. (Yəni) hədis iddia olunmuş məsələyə açıq-aşkar dəlalət etməlidir.

Bura qədər başa düşdük ki, mübarək ayə Peyğəmbərin ﷺ xristianlarla mübahiləsi haqqındadır. Nəcran xristianları ilə, hansı ki, bəzi lüğət kitablarından və ölkələrə aid olan kitablardan yadımda qalan qədəri ilə, Məkkə və Yəmən arasında yerləşən bir məntəqədir.

Bu müqəddəs ayənin təfsiri üçün, həmçinin kimin haqqında nazil olması və Peyğəmbərlə ﷺ kimin mübahiləyə getməsi haqqında sünnəyə müraciət etdikdə görürük ki, Müslim, Tirmizi, Nəsai və əhli-sünnə nəzdində səhih kitab müəllifləri[2] bu hadisəni mötəbər sənədlərlə nəql edirlər. Əhli-sünnə nəz-

---

[1] Müslimin "Səhih" kitabları, Əhməd ibn Hənbəl və başqalarının "Musnəd" adlanmış kitabları və əhli-sünnə yanında mötəbər sayılan kitablar nəzərdə tutulur. (tərc.)

[2] Müraciət et: Müslimin Səhih kitabı, c. 7, səh. 120;
Əhməd ibn Hənbəlin Musnəd kitabı, c. 1, səh. 185;
Tirmizinin Səhih kitabı, c. 5, səh. 596;
Nəsai, Xəsaisu-Əmiril-muminin, səh. 48-49;

dində səhih olan kitablarda mövcud olmaqla yanaşı, onların sənədləri də mötəbərdir. Yəni bu rəvayətlər hətta əhli-sünnə nəzərincə səhih sayılan kitablarda eyni sənədlərlə olmasa idi belə, (sırf həmin kitablarda olduqlarına görə) mötəbər sayılır. Peyğəmbər ﷺ mübahilə etmək üçün çıxdı və onun yanında Həzrət Əli, Həzrət Fatimə, Həzrət Həsən və Hüseyn var idi. Onlardan başqa onun ﷺ yanında heç kəs gəlməmişdi.

Sənədlər mötəbərdir. Hədis də "səhih"lərdə, Əhmədin "Musnəd"ində, təfsirlərdə kifayət qədər mövcuddur. Təbəri və s. kimiləri də qeyd etmişdir. Güman etmirəm ki, bu kimi kitablarda mövcud olduqdan sonra hər hansısa bir şəxs gəlib bu hədisin sənədinə irad bildirə.

Düzdür, "əs-Sirətul-hələbiyyə" kitabında sənədsiz bir hədis görmüşəm ki, o hədisə Ömər ibn Xəttab, Aişə və Həfsənin də mübahilə üçün çıxdıqları artırılmışdır.[1] Həmçinin İbn Şəbbənin "Tarixu Mədinətil-münəvvərə" kitabında görmüşəm ki, onların (Peyğəmbər və Əhli-beytinin) yanında bir qrup səhabə də var idi.[2] (İbn Şəbbə) bundan artıq bir söz demir. Eynilə İbn Əsakirin tarix kitabında[3] Osman ibn Əffanın tərcümeyi-halında bir hədis tapdım ki, Peyğəmbər ﷺ mübahilə üçün çıxır və onunla İmam Əli, Həzrət Fatimə, Həzrət Həsən və Hüseyn (ə), həmçinin Əbu Bəkr, Ömər, Osman və onların övladları da olur.

Bunlar "səhih"lərdə, Əhmədin "Musnəd"ində və başqa məşhur mötəbər kitablarda gələn hədislərin müqabilində olan rəvayətlərdir. Lakin bu rəvayətlər:

---

Hakim Nişapuri, Əl-Mustədrək ələs-səhiheyn, c. 3, səh. 150;
İbn Həcər Əsqəlani, Fəthul-Bari fi şərhi səhihil-Buxari, c. 7, səh. 60;
Molla Əli Qari, Əl-Mirqat fi şərhil-Mişkat, c. 5, səh. 589;
Cəssas, Əhkamul-Quran, c. 2, səh. 16;
Təbərinin Tarix kitabı, c. 3, səh. 212;
İbn Kəsirin Təfsir kitabı, c. 1, səh. 319;
Siyuti, Əd-Durrul-mənsur, c. 2, səh. 38;
İbn Əsir, Əl-Kamil fit-tarix, c. 2, səh. 293; Usdul-ğabə, c. 4, səh. 26 və başqa təfsir, hədis və tarix kitablarına.

[1] Əli ibn Burhanəddin Hələbi, İnsanul-uyun (Əs-Sirətul-hələbiyyə adı ilə məşhurdur), c. 3, səh. 236.
[2] İbn Şəbbə, Tarixu Mədinətil-münəvvərə, c. 1, səh. 581.
[3] İbn Əsakir, Tarixu mədinəti Diməşq, Osman ibn Əffanın tərcümeyi-halı.

1) Xəbəri-vahidlərdir;

2) Bir-birləri ilə ziddiyyət təşkil edirlər;

3) Elə rəvayətlərdir ki, onları ancaq həmin ravilər nəql etmişdir. (Nəqlində) ittifaq olunmuş rəvayətlərdən deyil;

4) "Səhih"lərdə nəql olunmuş rəvayətlər də o hədislərlə ziddiyyət təşkil edir;

5) Bu mövzu haqqında araşdırmamda etdiyim təhqiqimə əsasən, elə rəvayətlərdir ki, ya sənədləri yoxdur, ya da zəifdir.

Beləliklə, məsələ Müslimin və digərlərinin "Səhih"lərində, Əhməd və digər müəlliflərin "Musnəd" kitablarında, Təbəri, Zəməxşəri, Razi, İbn Kəsirin təfsirlərində və başqa çoxsaylı kitablarda olduğu kimi qalır: (Yəni mübahilə hadisəsində) Peyğəmbərlə ﷺ birlikdə Həzrət Əli, Həzrət Fatimə, Həzrət Həsən və Hüseyndən başqa heç kəs yox idi.

## AYƏNİN HƏZRƏT ƏLİNİN عليه السلام İMAMƏTİNƏ DƏLALƏTİ

Yaxşı bəs ayənin nazil olma səbəbini və həmin hadisədə Peyğəmbərlə صلى الله عليه وآله وسلم kimin getdiyini bəyan etdikdən sonra bu müqəddəs ayənin Həzrət Əlinin عليه السلام imamətinə dəlaləti haradandır? Ey imamiyyə şiələri, bu mübarək ayə ilə Əlinin عليه السلام imamətinə necə dəlil gətirirsiniz?

Bu ayədə və onun təfsirində gəlmiş hədislərdə Əmirəl-mumininin (ə) İmamət məsələsi ilə əlaqəli olaraq, alimlərimiz İmamlarımıza tabe olaraq "ənfusəna" sözünü dəlil gətirirlər.

Bəlkə də bu mübarək ayə ilə ilk dəlil gətirən şəxs elə Möminlərin əmirinin عليه السلام özü olmuşdur. (Ömərdən sonra) Xəlifə seçmək üçün olunmuş şura məclisində özünün bir çox fəzilət və üstünlüyünü orada olan digər şəxslərə dəlil gətirdiyi zaman. Dəlillərdən biri də Mübahilə ayəsi və bu hadisə ilə gətirdiyi dəlil idi. Orada olanların hamısı Möminlərin əmirinin عليه السلام dediklərini iqrar edib onun buyurduqlarını təsdiq etdilər. Möminlərin əmirinin عليه السلام həmin məclisdə bu ayə ilə dəlil gətirməsi sünnilərin öz kitablarında da nəql olunmuşdur.[1] Həmçinin bizim hədislərimizdə[2] də mövcuddur ki, Məmun Abbasi İmam Rzadan عليه السلام belə soruşur:

"Əlinin imamətinə və ya üstünlüyünə dair Qurani-Kərimdən bir dəlilin varmı?" Sual verən Məmun, cavablayan isə İmam Rzadır عليه السلام. Süyutinin "Tarixul-xuləfa"sında[3] və başqa kitablarda, Məmunun tərcümeyi-halında qeyd etdikləri kimi o, xəlifələrin (elm cəhətindən) üstünlərindən biri və ya Abbasi xəlifələrinin alimlərindən idi. Məmun İmamdan ona Qurandan dəlil gətirməsini tələb edir. Sanki sünnədən olan dəlildə bir irad ola bilər, sənəddə və ya başqa bir şeydə. Lakin Qurani-Kərimlə bağlı olan məsələdə, uca Quranın ayələrində sənəd cəhətindən bir mübahisə ola bilməz. İmam Rza عليه السلام ona Mübahilə ayəsini zikr edir və "ənfusəna" (özümüzü) sözü ilə dəlil gətirir. Çünki Peğəmbər صلى الله عليه وآله وسلم qadınlarını çıxarmağa əmr olunduqda özü ilə yalnız Həzrət

---

[1] İbn Əsakir, Tarixu mədinəti Diməşq, Əmirəlmömininin عليه السلام tərcümeyi-halı, c. 3, səh. 90, hədis 1131.

[2] Seyid Mürtəza, Əl-Fusulul-muxtarə minəl-Uyuni vəl-Məhasin, səh. 38.

[3] Süyuti, Tarixul-xuləfa, səh. 306.

Fatiməni ﷺ, oğullarını çıxarmağa əmr olunduqda Həzrət Həsən və Hüseyni, özünü (mübahiləyə) çıxarmaqla əmr olunduqda isə yalnız Əlini ﷺ çıxardı. Demək, Həzrət Əli ﷺ ayənin təfsirində gələn hədislərə əsasən, Allah rəsulunun ﷺ özüdür. Necə ki həmin hədislərin mənbələrinə işarə etmişik.

Allah rəsulu ﷺ yalnız Əlini ﷺ gətirmişdi. Əli ﷺ Allah rəsulunun ﷺ özü idi. Lakin həqiqi mənada Allah rəsulunun ﷺ özü olması qeyri-mümkündür. Demək, burada məcazi məna nəzərdə tutulmuşdur. Elmi kitablarımızda da qeyd olunduğu kimi, bu cür yerlərdə həqiqətə ən yaxın olan məcaz əsas götürülür. Bu kimi yerdə isə həqiqətə ən yaxın olan məcaz budur ki, Həzrət Əli ﷺ Peyğəmbərə ﷺ bərabərdir. Lakin Peyğəmbərə ﷺ olan bu bərabərlik hər bir baxımdandırmı, hər bir cəhətdəndirmi? Hətta nübüvvət baxımından? Xeyr. Nübüvvət məsələsi Allah rəsulundan ﷺ sonra bir peyğəmbər gəlməyəcəyinə olan icma ilə bu bərabərlikdən xaric olur. Allah rəsulunun ﷺ digər məziyyətləri, onun digər xüsusiyyətləri və kamillikləri isə bu müqəddəs ayəyə görə Həzrət Əlidə ﷺ mövcud olaraq qalır.

Allah rəsulunun ﷺ xüsusiyyətlərindən biri ismətdir. Demək, Mübahilə ayəsi mütləq şəkildə Əli ibn Əbu Talibin ﷺ də ismətinə dəlalət edir. Allah rəsulunun ﷺ xüsusiyyətlərindən biri möminlərə özlərindən daha çox ixtiyarı çatan olmasıdır (onlar üzərində onların özlərindən daha artıq vilayət sahibi olmasıdır). Həzrət Əli ﷺ də Allah rəsulu ﷺ kimi möminlərə özlərindən daha çox ixtiyarı çatandır. Allah rəsulunun ﷺ xüsusiyyətlərindən biri də budur ki, o, Allah-taala bu aləmi və bütün varlıqları yaradandan bəri insanların, bəşəriyyətin və məxluqların ən üstünüdür. Onların ən şərafətlisi Məhəmməd ibn Abdullahdır ﷺ. Əli ﷺ də onun kimidir (məxluqların ən üstünüdür).

Bir gecə də imamların peyğəmbərlərdən üstünlüyü barədə danışarıq. Görəcəksiniz ki, bu ayə - həmçinin bu barədə başqa dəlillər də var - Həzrət Əlinin ﷺ Peyğəmbərimizdən ﷺ başqa bütün peyğəmbərlərdən üstünlüyünə dəlalət edir.

Beləliklə, mötəbər hədislər işığında bu müqəddəs ayənin təfsirini əldə etdik. Həmçinin bu mötəbər hədislərin hökmü ilə fəzilətcə aşağı olanın daha fəzilətli olana tərcihinin pis olması ilə bağlı olan əqli hökmün xüsusi müqəddəmməsini də əldə etdik.[1]

---

[1] Bura qədər qeyd olunanlardan aydın oldu ki, İmam Əli ﷺ Peyğəmbər ﷺ istisna olmaqla bütün bəşəriyyətin ən üstünüdür. Bu, birinci, xüsusi müqəddimədir. İkinci-ümumi müqəddi-

Həmçinin möminlərə onların özlərindən daha çox ixtiyarı çatan olması məsələsi də bir yana. Allah rəsulu ﷺ möminlərə onların özlərindən daha çox ixtiyarı çatandır. Həzrət Əli عليه السلام də möminlərə onların özlərindən daha çox ixtiyarı çatandır. Bütün araşdırmalarımızın hamısında sonuncu gecəyədək görəcəksiniz ki, hədislərin sözlərinin, sənədlərinin, dəlalət etdikləri mənaların müxtəlifliyinə baxmayaraq, hamısı bir mətləbə işarə edir: o da Həzrət Əlinin عليه السلام üstünlüyü, onun imaməti və Allah rəsulundan ﷺ sonra fasiləsiz xəlifəliyidir. Yəqin ki Qədir hədisini xatırlayırsınız: "(Peyğəmbər ﷺ dedi:) Mən möminlərə onların özlərindən daha çox ixtiyarı çatan deyiləmmi?" İnsanlar "Əlbəttə" dedilər. Bu zaman Peyğəmbər ﷺ buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır". Qədir hədisinin dediyi mənanın özü elə Mübahilə ayəsində gör-düyünüz məfhumun eynisidir.

Qeyd etdiyimiz hər bir qəti və əsas olan müqəddimələr və girişlərə baxdıqda heç kəs zikr etdiyim şeylərə irad edə bilməz.

---

mə isə budur: üstünlük baxımından aşağı olanı ən üstün olana və ya daha üstün olana tərcih etmək əqlən pis bir şeydir. Bu iki müqəddimədən belə bir nəticə çıxır: digərlərini (bu məqamda Əbu Bəkri) hər hansısa bir şeydə (məsələn, müsəlmanlara rəhbərlik məqamında) İmam Əliyə (ən üstün olana) tərcih etmək əqlən pis bir şeydir. Əvvəlki haşiyələrin birində də bu metod barədə izah vermişik. (tərc.)

# İBN TEYMİYYƏ VƏ MÜBAHİLƏ AYƏSİ

Hər hansısa bir iddiaçı, təəssübkeş və ya cahil biri İbn Teymiyyənin "Minhacus-sunnə"də yazdığı kimi[1] iddia etsə ki, (düzdür,) Peyğəmbər ﷺ yalnız onları (Əhli-beytini) özü ilə bərabər mübahiləyə gətirmişdi, başqasını gətirməmişdi. (Əvvəla burada) İbn Teymiyyə etiraf edir, etiraf edir ki, Allah rəsulu ﷺ ilə onlardan başqa birisi gəlməmişdi. Bu günlərdə İbn Teymiyyənin etirafının elmi cameələrimizdə, bəhslərimizdə böyük təsiri var. Çünki müxaliflərin bir çoxu onu "şeyxülislam" (İslamın şeyxi) görürlər. Hərçənd ki elə müxalifərin bəzi böyük alimləri belə demişdir: "Kim İbn Teymiyyənin şeyxülislam olduğunu desə, o, kafirdir". Hər bir halda, İbn Teymiyyə Mübahilə hadisəsi zamanı Allah rəsulu ﷺ ilə o dörd nəfərdən başqa birinin gəlmədiyini iqrar edir, bunu etiraf edir. "Minhacus-sunnə" kitabına müraciət edin, görəcəksiniz. Lakin o deyir ki, ərəblərin mübahilədə adəti bu idi ki, onlar özlərinə ən yaxın şəxsləri mübahiləyə aparırdılar. Adətləri üzrə özləri ilə mübahiləyə nəsəb baxımından ən yaxınlarını gətirirdilər, hətta yaxınları fəzilətli, təqvalı, Allah yanında məxsusi bir dəyər və məqam sahibi olmasalar belə. İbn Teymiyyə belə yazır. Lakin yenə özü özünə etiraz edərək deyir: "Hətta bu cür olsa belə, nəyə görə əmisi Abbası özü ilə aparmadı?" Hərçənd ki Abbas bəzilərinə görə - Qədir hədisi haqqında danışdıqda çox güman həmin alimlərin sözlərinə toxunarıq - Allah rəsuluna ﷺ Həzrət Əlidən (ع) daha yaxın olmuşdur. Amma nəyə görə Peyğəmbərlə ﷺ mübahiləyə getməmişdi? O (öz etirazına) cavab olaraq deyir ki, düzdür, lakin Abbasın bu kimi mühüm məsələdə iştirak etməyə səlahiyyəti, qabiliyyəti yox idi, buna layiq deyildi. Bunu öz sözlərimlə deyirəm, onun öz yazdığına müraciət edin. Mən mənanı nəql etdim. O deyir ki, Abbas o məqamda deyildi ki bu cür (mühüm) qəziyyədə yer alsın. Və deyir ki, buna görə Əli (ع) üçün bu hadisədə bir növ fəzilət vardır. İbn Teymiyyə bu miqdarını etiraf edir. Bu məsələdə İbn Teymiyyə kimisinin Həzrət Əli (ع) üçün bir fəzilətin olduğunu etiraf etməsi də qənimətdir.

Mərhum Əllamə Hillinin kitabına rəddiyə yazıb kitabını "İbtalul-batil" ad-

[1] İbn Teymiyyə, Minhacus-sunnə, c. 7, səh. 122-130.

landıran Fəzl ibn Ruzbəhan Xuncinin kitabına müraciət etsən, görərsən ki, o da bu məsələdə Həzrət Əlinin (ع) elə bir fəzilətinin olduğunu etiraf edir ki, bu fəzilətdə heç kəs ona bərabər olmamışdır.[1]

Hərçənd İbn Teymiyyə deyir ki, bu fəzilət yalnız Əliyə (ع) məxsus deyildi, Həzrət Fatimə, Həzrət Həsən və Hüseynə də aid idi. Yəni (demək istəyir ki,) bu fəzilətə çatan yalnız Həzrət Əli (ع) deyil. Onun bu cür deməsi isə çox gülüncdür. Məgər Həzrət Fatimə, Həsən və ya Hüseyn Həzrət Əlidən (ع) üstün olduqlarınımı iddia edirlər? Yəni mübahisə Həzrət Əlinin Xanım Fatiməyə, Həzrət Həsənə və Hüseynə olan üstünlüyündədir, yoxsa Həzrətin Əbu Bəkrə olan üstünlüyündə, üstünlük baxımından aşağı olanı ən üstün olana tərcih etməyin ağılın hökmü ilə pis bir şey olmağında? Maraqlısı budur ki, İbn Teymiyyə özü "Minhacus-sunnə" kitabının bir çox yerində üstünlük baxımından aşağı olanı daha üstün olana tərcih etməyin (əqlən) pis bir şey olmağını etiraf edir. Bu şeyi iqrar edir və daim buna uyğun əməl edir. Elə buna görə də o, Möminlərin əmirinin (ع) fəzilətlərini sual altına salmaq istəyir ki, onun başqalarından üstünlüyü sabit olmasın.

Bütün bunlardan əlavə, baxırsınız ki, Allah rəsulu (ع) Həzrət Əliyə, Xanım Fatiməyə, Həsən və Hüseynə belə deyir: "Mən dua etdikdə "amin" deyərsiniz".[2] Onların "amin" deməklərinin nə təsiri var idi? Onların sözləri hansı (mənəvi) təsirə malik idi ki, Allah rəsulu (ص) xristianların əleyhində dua etdikdən sonra Allah-taalaya "amin" desinlər? Məgər Allah rəsulunun (ص) xristianların əleyhində etdiyi dua kifayət etmirdimi ki, o (ص), Xanım Fatimədən və azyaşlı Həsən və Hüseyndən "amin" deməsini istəyirdi?!

---

[1] Nurullah Şüştəri, İhqaqul-həqq, c. 3, səh. 62

[2] Zəməxşəri, Əl-Kəşşaf, c. 1, səh. 368;
Xazin, Təfsirul-Xazin, c. 1, səh. 243 və başqa (əhli-sünnə) mənbələri.

## SON SÖZ VƏ NƏTİCƏ

Nəticədə Həzrət Əlinin, Xanım Fatimənin, Həzrət Həsən və Hüseynin İslam dininin irəliləməsində payı var idi. Həzrət Əli ﷺ Allah rəsuluna ﷺ onun risalətində (Allah tərəfindən olan haqq dini insanlara çatdırmaqda) şərik idi. Bu, "Onu da dediklərimi təsdiqləyən bir köməkçi kimi mənimlə birlikdə göndər"[1] ayəsi ilə uyğunlaşır. Harun Musanı risalətində təsdiqləyən bir köməkçi (arxa-dayaq) idi. Harun risalətində Musa ilə şərik idi. Və bu, Peyğəmbərin ﷺ (İmam Əliyə ﷺ dediyi) "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir. Bir fərqlə ki məndən sonra peyğəmbər yoxdur" kəlamının mənasıdır. Əvvəldə də dediyim kimi, hədislərin hamısı bir mətləbə işarə edir, müşahidə edirsən ki, bir-birlərini təsdiq edir, Qurani-Kərimlə uyğunlaşırlar. Əhli-beytlə ﷺ bağlı olan məsələlər (hamısı) bu cürdür. (Məsələn,) Allah rəsulu ﷺ öz ailəsini əbanın altında toplayır və "Tət-hir" ayə-si[2] nazil olur. Qədir-xum günündə Əlini ﷺ xəlifə olaraq təyin edir və həmin toplumun içində onun imamətini elan edir, bu zaman bu müqəddəs ayə nazil olur: "Bu gün dininizi sizin üçün kamil etdim".[3]

Allah rəsulunun ﷺ etdiyi feillər və həmin anlarda nazil olan ayələr arasında necə də möhkəm əlaqə mövcuddur. Bu möhkəm əlaqəni görürsünüz, Allah-taala buyurur: "Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq (sonra isə dua edib yalançılara Allahın lənət etməsini diləyək)". Allah rəsulu ﷺ isə yalnız və yalnız Həzrət Əli, Xanım Fatimə, Həzrət Həsən və Hüseynlə (mübahiləyə) çıxır. Budur Allah rəsulunun ﷺ feilləri, sözləri və vəhy arasındakı (möhkəm) əlaqə.

Beləliklə, ayənin dəlalət etdiyi şey ancaq mübahiləyə əmrdir və mübahilənin mənasını anladıq. Ancaq hədis Həzrət Əlinin, Xanım Fatimənin, Həzrət Həsən və Hüseynin Allah rəsulu ﷺ ilə birlikdə çıxmasına dəlalət edir. Müqəddəs ayədə yalnız "ənfusəna" (özümüzü) sözü işlənilib. Lakin hədis mübarək ayədəki bu sözü əməli şəkildə təfsir edir və (hədisə əsasən,) Həzrət Əli ﷺ Allah rəsulunun ﷺ özü olur, təbii ki, həqiqi mənada Allah rəsulunun ﷺ

---

[1] "Qəsəs" surəsi, 34-cü ayə.
[2] "Əhzab" surəsi, 33-cü ayə.
[3] "Maidə" surəsi, 3-cü ayə.

özü deyil. (Yəni) Həzrət Əli عليه السلام Allah rəsulu ﷺ kimidir, onun özü kimidir, ona ﷺ bərabərdir. Hədislərdə bir çox yerlərdə buna başqa şahidlər (dəlillər) də mövcuddur. Allah rəsulu عليه السلام qəbilələrdən birini təhdid edərkən belə deyir: "Ya (siz) bu işə son qoyacaq, ya da sizə özüm kimi birini göndərəcəyəm". Həmçinin "Bəraət" surəsinin[1] çatdırılması məsələsində də görürsünüz ki, Əbu Bəkr qayıtdıqdan sonra Peyğəmbər ﷺ Allah-taalanın ona həmin surəni ya özünün, ya da ondan olan birinin çatdırmasını vəhy etdiyini deyir. Başqa bir yerdə isə "Əli məndən, mən də Əlidənəm. Məndən sonra sizin vəliniz odur" deyir. Bu da başqa hədisdədir və bunun kimi başqa hədislər də var ki, bir-birini təsdiqləyirlər.

Bura qədər Mübahilə ayəsinin Möminlərin əmirinin عليه السلام imamətinə dəlaləti haqqında olan bəhs bitdi. Əgər daha artıq məlumat əldə etmək istəsəniz, (bu barədə) alimlərimizin kitabları mövcuddur: Seyid Mürtəzanın "Əş-Şafi" kitabı, "Təlxius-şafi" kitabı, Bəyyazinin "Əs-Siratul-mustəqim"i, Əllamə Hillinin (r) kitabları və bu mövzuda yazılmış başqa kitablar. Allaha həmd olsun ki, mənim də bu mövzuda kiçik bir kitabım var və çap olunub. Ətraflı oxumaq istəyən, (ona da) müraciət etsin.

Allahın rəhmət və bərəkəti olsun ağamız Məhəmməd və onun pak ailəsinə.

[1] "Tövbə" surəsi nəzərdə tutulur. (tərc.)

# MÜNDƏRİCAT


Ön söz ..... 3

Giriş ..... 4

ARAŞDIRMANIN MÜQƏDDİMƏLƏRİ ..... 5

Birinci müqəddimə: Məsələlərin doğru əsaslar üzrə araşdırılması ..... 5

İkinci müqəddimə: Quran, ağıl və sünnə ilə istidlal ..... 6

SÜNNƏ İLƏ İSTİDLALIN BƏZİ QİSİMLƏRİ ..... 8

Üçüncü müqəddimə: İmamət barədə araşdırma aparmağın əhəmiyyəti ..... 9

MÖVZUNUN HƏZRƏT ƏLİ (ع) VƏ ƏBU BƏKR ARASINDA MƏHDUDLAŞMASI ..... 11

MÜBAHİLƏ AYƏSİ ..... 11

Mübahilə sözünün lüğəvi mənası ..... 11

PEYĞƏMBƏRLƏ BİRLİKDƏ MÜBAHİLƏ ETMƏYƏ GEDƏNLƏRİN KİMLİYİ ..... 14

AYƏNİN HƏZRƏT ƏLİNİN (ع) İMAMƏTİNƏ DƏLALƏTİ ..... 17

İBN TEYMİYYƏ VƏ MÜBAHİLƏ AYƏSİ ..... 20

SON SÖZ VƏ NƏTİCƏ ..... 22

besiret.az